# ƏLİ SƏMƏDLİ VƏ UŞAQ DÜNYASI

*Əli Səmədlinin yazılarında bir nağıl şirinliyi, valideyn mehribanlığı, ağsaqqal müdrikliyi var.*
**Professor Qara Namazov**



Uşaqların sevimli nağılçı babası, həvəslə oxuduqları əsərlərin müəllifi, şair, yazıçı, dramaturq Əli Səmədlinin qələmindən çıxan hekayələr, nağıllar, pyeslər, povestlər oxucuların qəlbinə nəcib, gözəl hisslər aşılayır. Onun dadlı, duzlu nağıl-hekayələri canlı, təbii, səmimi hisslərdən yoğrulmuş həyat lövhələridir. Bu nağılların mayasında insan taleyi, insan varlığı dayanır. Əsərlərində zəhmətkeş olmağı, doğma vətəni sevməyi, səmimiyyəti, mehribançılığı, ədaləti, həqiqəti tərənnüm edir.

Azərbaycan uşaq ədəbiyyatının görkəmli nümayəndəsi Əli Qafur oğlu Səmədli 1930-cu il sentyabr ayının 1-də Göyçay rayonunun Mallışıxlı kəndində, müəllim ailəsində doğulub. 1948-ci ildə Göyçay şəhərində orta təhsilini başa vuraraq, Bakıya gəlmiş, İncəsənət İnstitutunun (indiki Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti) Teatrşünaslıq fakültəsinə daxil olmuşdur. Əmək fəaliyyətinə 1953-cü ildə Pirallahı adasındakı fəhlə yataqxanasında tərbiyəçi müəllim kimi başlayıb, sonra Azərbaycan Mədəniyyət Nazirliyində inspektor, kinoprokat idarəsində rəis müavini, Kinematoqrafçılar İttifaqında incəsənətin təbliği bürosunun direktoru, “Azərbaycan pioneri” qəzeti redaksiyasında şöbə müdiri, Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Komitəsində ədəbi-dram redaksiyasında redaktor kimi çalışıb. 2006-cı il may ayının 30-da vəfat edib.

Ədəbiyyatın bütün janrlarında qələmini sınayan yazıçı yaradıcılığa 1959-cu ilin mayında “Ədəbiyyat və incəsənət” qəzetində çap olunan “Unuda bilmirəm” hekayəsi ilə başlayıb. Bundan sonra dövri mətbuatda maraqlı hekayələri ilə müntəzəm çıxış edib. “Ən böyük yalançı” adlı nağılı isə ilk dəfə “Azərbaycan pioneri” qəzetində işıq üzü görüb. “Aqil babanın nağılları” adlı ilk kitabı 1962-ci ildə oxucuların ixtiyarına verilib. O, istər kiçikhəcmli nağıllarında, istərsə də iri povestlərində özünü uşaq dünyasına, uşaq psixologiyasına bələd bir sənətkar kimi göstərir. Bədii əsərlərinin dili oxunaqlığı və bədiiliyi ilə seçilir. Əli müəllimin zəngin həyat təcrübəsi, fakt və hadisələrə obyektiv müdaxiləsi, uşaq mənəviyyatına dərindən bələdliyi qələmə aldığı povest, nağıl və hekayələrində açıq-aydın görünür. Uşaq dramaturgiyası sahəsində ədəbi fəaliyyətində də daim sadiq qaldığı xalq ədəbiyyatından məharətlə bəhrələnib. Müəllifin on səkkiz uşaq pyesi dövlət teatrlarında tamaşaya qoyulmuş və üzünömürlü olmuşdur. Uşaq pyesləri və multiplikasiya filmləri üçün yazdığı ssenarilər müsabiqələrdə dəfələrlə mükafatlara layiq görülüb.

Ə.Səmədlinin uşaqlıq illəri müharibə dövrünə düşüb. Atası və əmiləri əsgər getdiyindən ailənin ağırlığı balaca Əlinin çiynində olub. Özünün dediyi kimi: “Uşaqlığım, gəncliyim, hec olmayıb dincliyim”. Həmin məşəqqətli zamanların yaşantıları onun “Generalın uşaqlığı” və “Ömür karvanı” kitabında geniş əksini tapıb. Ən çox uşaqlara maraqlı olan nağıl janrında yazmağı bacardığı üçün onların sevimli yazıçısıdır. 55 ildən artıqdır ki, uşaq və gənclər ədəbiyyatı sahəsində fəaliyyət göstərir. 40-a yaxın kitabın və 33 səhnə əsərinin müəllifidir.



“Əhmədin vəfalı xoruzu”




Ayrı-ayrı əsərləri 20-dən artıq xarici dilə - türk, özbək, türkmən, qırğız, belarus, fars, bolqar, macar, polyak, alman, ingilis, hind, əfqan, fransız və başqa xalqların dillərinə tərcümə edilərək yayılıb.

Müəllif uşaqları onların maraq dairəsi daxilində səyahətə çıxarır. Balacalar səyahətdən yorulmaq bilmir və nağıl dünyasının romantikasına dalırlar. El ədəbiyyatının ən qədim növü sayılan nağıllar yazılı ədəbiyyatın, o cümlədən uşaq ədəbiyyatının inkişafı üçün həmişə tükənməz mənbə olmuşdur. Bu mənbədən bəhrələnən Əli Səmədli uşaqlara çox oynaq və axıcı bir dildə nağıl danışır. Bir uşaq yazıçısı kimi həmişə oxucusunun maraq və görüş dairəsinin genişlənməsinə xüsusi fikir verir. Bu onun bütün əsərləri üçün səciyyəvidir. “Sehrli xalça” da, “Siçanların toyu” və digər əsərlərində də nağıl dilində, uşaqların başa düşəcəyi bir dildə onlarla söhbət edir. “Lovğa yarpaq” nağılında adından da göründüyü kimi, lovğalıq, təkəbbür tənqid atəşinə tutulur. Maraqlıdır ki, yazıçı öz nağıllarının əksəriyyətini “Biri vardı, biri yoxdu...” ilə başlayır. Nağıl-povestlərində oxucunu düşünüb çıxış yolu müəyyənləşdirməyi öyrədir. Hansı ki, uşaqların dünyagörüşünün inkişafına, zehinlərinin itiləşməsinə müsbət təsir göstərir, istər-istəməz fikirləşir, axtarmaq, tapmaq haqqında düşünürlər. Bu mənada, yazıçının nağıl-tapmacaları xüsusi əhəmiyyət kəsb edir. “Meşənin ən dinc heyvanı” nağıl-tapmacasında uşaqlara sadə dillə maraqlı bir nağıl danışır. Onlarda xainliyə yırtıcılığa, ziyankarlığa, oğurluğa nifrət hissi oyadır. Eyni zamanda, azyaşlıları bir qədər də düşünməyə vadar edir. Çalışır ki, ifadə etmək istədiyi fikri balaca oxucularına çatdıra bilsin və onlar yetkin, zəngin dünyagörüşlü insan kimi formalaşsınlar.

Əli Səmədli “Zərgül və Tərgül” “Qarlı gündə”, “Məktəb səhnəsi”, “Çinar ömrü uzun olur”, “Tapmacalar”, “Hər kəsin öz nəğməsi”, “Sehrli xalça” və başqa kitabları ilə yanaşı, teatr səhnələrində tamaşaya qoyulmuş “Artıq tamah baş yarar”, “Kibrit çöplərinin macərası”, “Sarı bülbül”, “Sehrlər aləmində” və s. pyesləri ilə oxucu və tamaşaçılara yaxşı tanışdır. Əsərlərinin əksəriyyəti folklor motivləri əsasında qələmə alınmış, xalq nağıllarından və rəvayətlərdən qidalanır. İnsanların qəlbinə sirayət edir, onların tərbiyəsində müəyyən rol oynayır, mənəviyyatlarını aşınmağa qoymur. Uşaqlar üçün yazdığı pyeslərin bir çoxu teatrlarda səhnələşdirilib. “Artıq tamah baş yarar” nağıl-pyesi dəfələrlə A.Şaiq adına Dövlət Kukla teatrında tamaşaya qoyulub, böyük müvəffəqiyyət qazanıb. Pyes uşaqların xoşuna gəldiyi üçün səhnədən düşməyib, indi də teatrın ən yaxşı əsərləri cərgəsindədir. Hələ Nizami motivləri əsasında yazdığı “Hərənin bir ulduzu” nağıl-pyesi! C.Rəhman adına Şəki Dövlət teatrının ifasında dəfələrlə televiziya ilə göstərilib. “Əhmədin vəfalı xoruzu” nağıl-pyesinin taleyi daha uğurlu olub. Əsər Gəncə Dövlət Kukla Teatrında, Özbəkistan və Belarusun uşaq teatrlarında müvəffəqiyyətlə göstərilib.

Əli Səmədlinin nağıllarını oxusanız, qəlbinizdə yeni nağıl dünyası yaranacaq və siz sanki bu sehrli aləmin sakinləri olacaqsınız. Bu il sevimli yazıçının 90 illik yubileyi qeyd edilir. ❖

**Ruhiyyə Məmmədli**
F.Köçərli adına Respublika
Uşaq Kitabxanası elmi-metodika
şöbəsinin müdiri